**Vergi Məcəlləsinə dəyişikliklər nağdsız dövriyyəni genişləndirəcək**

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Akif Musayevin çıxışı nağd ödənişlər üçün limitin mğəyyənləşdirilməsi zərurəti müvzusuna həsr olunmuşdu:

- Qeyd etmək lazımdır ki, Azərbaycanda mütərəqqi ödəniş sisteminin formalaşdırılması istiqamətində aparılan islahatlar nəticəsində nağdsız ödəmələrin genişləndirilməsi üçün müasir banklararası hesablaşmalar sistemi yaradılmış və ödəmələrin elektron daşıyıcılar, o cümlədən plastik kartlar vasitəsilə şəffaf, təhlükəsiz, səmərəli həyata keçirilməsinə geniş imkanlar verilmişdir.

Məlumdur ki, dövriyyədə olan pul kütləsində nağdsız ödəmələrin xüsusi çəkisinin yüksək olması bank-kredit sistemini iqtisadi inkişafın hərəkətverici qüvvəsinə çevirir. Eyni zamanda, nağdsız ödəmələr pul kütləsinin səmərəli idarə olunmasını, inflyasiyanın qarşısının alınmasını, pul kütləsinin dövretmə sürətinin artırılmasını təmin etməyə imkan verir.

Demək olar ki, nağd pul kütləsi inkişaf etmiş ölkələrdə də müəyyən xüsusi çəkiyə malikdir. Lakin bu çəkinin hansı səviyyədə olması, ümumiyyətlə, pul kütləsinin ümumi daxili məhsula nisbəti son dərəcə mühüm məsələlərdəndir. Azərbaycanda dövriyyədə olan pul kütləsinin ÜDM-dəki xüsusi çəkisi 2011-ci ildə 27,8 faiz, cari ilin 9 ayı üzrə isə 38 faiz təşkil etmişdir. Bu göstərici inkişaf etmiş ölkələrdə orta hesabla 60 faizə bərabərdir. Nağd pul kütləsinin ümumi pul kütləsində xüsusi çəkisi inkişaf etmiş ölkələrdə 7-10 faiz arasında olduğu halda, ötən ilin məlumatına əsasən, bu göstərici Azərbaycanda 51 faiz təşkil etmişdir. Bunlar da onu göstərir ki, nağdsız ödənişlərin genişləndirilməsi dövlətimizin maliyyə-iqtisadi siyasətinin əsas hədəflərindən biri olaraq qalır.

Hazırda respublikamızda nağdsız ödənişlərin inkişafını, o cümlədən POS-terminalların tətbiqini təmin edən 10-a yaxın normativ-hüquqi akt qəbul olunmuşdur. Bununla belə, nağdsız ödənişlərin genişləndirilməsi üçün elektron ödəniş vasitələrinin tətbiqi heç də problemsiz deyildir. Hələ də bəzi bank təşkilatlarının və təsərrüfat subyektlərinin POS-terminalların tətbiqinə az maraq göstərməsi və əhalinin nağd ödənişlərin aparılmasına daha meyilli olması halları müşahidə olunur. Hesab edirəm ki, bu sahədə tarixi təcrübədən, inkişaf etmiş ölkələrdə tətbiq olunan stimullaşdırıcı və məhdudlaşdırıcı tədbirlərdən istifadə etməklə, habelə əhalinin maarifləndirilməsi və məlumatlandırılması yolu ilə göstərilən poblemlərin aradan qaldırılmasına nail oluna bilər.

Dünya təcrübəsində də nağdsız ödənişlərin həcminin artırılması üçün maarifləndirmə və təbliğat vasitələrindən əlavə, inzibati metodlardan da geniş istifadə olunur. Bir sıra ölkələrin maliyyə və vergi qanunvericiliyində əksini tapmış bu cür tədbirlərdən biri nağdsız ödənişlərin yuxarı həddi üçün limitin müəyyənləşdirilməsi və bu limitdən artıq ödəmələrə görə cərimənin nəzərdə tutulmasıdır. Məsələn, Avropa ölkələrindən Fransada hüquqi şəxslər arasında bir əqd üzrə nağd qaydada aparılan hesablaşmanın məbləği 1300 ABŞ dollarından artıq olduqda, artıq məbləğin 5 faizi həcmində cərimə tətbiq edilir. Bolqarıstanda nağd qaydada aparılan ödənişlərin maksimal məbləği 3,3 min ABŞ dollarından artıq olduqda, fiziki şəxslər artıq ödənilmiş məbləğin 25 faizi, hüquqi şəxslər isə 50 faizi həcmində cərimə olunur. MDB ölkələrindən Qazaxıstanda hüquqi şəxslər arasında bir əqd üzrə nağd qaydada aparılan hesablaşmanın məbləği 26 min ABŞ dolları artıq olduqda, ödənişin 5 faizi həcmində cərimə tətbiq edilir. Rusiya Federasiyasında hüquqi və fiziki şəxslərin bir əqd üzrə nağd qaydada apardıqları hesablaşmaların məbləği 3,4 min ABŞ dollarından artıq olduqda, limitdən artıq vəsaiti ödəyənə qarşı 1,3-1,7 min ABŞ dolları məbləğində cərimə tətbiq olunur.

Bir çox ölkələrdə isə vergi sistemi vasitəsilə müəyyən güzəştlər tətbiq edilir və beləliklə, nağdsız dövriyyənin genişləndirilməsi üçün stimullaşdırıcı addımlar atılır. Azərbaycanda da Vergi Məcəlləsinə dəyişiklikləri nəzərdə tutan təkliflər paket halına salınaraq Nazirlər Kabinetinə təqdim edilmişdir. Bu dəyişikliklərin də bir qismi ölkədə nağdsız dövriyyənin genişləndirilməsinə xidmət edir.